**Azərbaycanın uğurlu xarici siyasəti ölkəmizin dünya birliyindəki reytinqini getdikcə yüksəldir. Qürurverici haldır ki, hazırda respublikamızın adı dünyanın inkişaf etmiş dövlətləri ilə bir sıradadır. Ötən il noyabrın 10- da Ermənistan üzərində qələbənin rəsmən elan olunması və 30 illik işğala son qoyulması ölkəmizin dünya birliyindəki reytinqini daha da artırdı. Ona görə ki, 30 il ərzində qüdrətli dövlətlərin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların nizamlaya bilmədikləri Qarabağ münaqişəsini Azərbaycan 44 gün ərzində yoluna qoydu.**




*Dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlara sədrliyi ölkəmizə olan inam və etimadın nəticəsidir

Ölkəmizdə xarici siyasət kursunun əsasları ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Son illərdə beynəlxalq aləmdə qazandığımız uğurlar bir daha təsdiqləyir ki, bu, çox uğurlu, səmərəli, demokratik məzmunlu və praktiki nəticələri yüksək olan prinsiplər sistemidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqları əsas götürərək, xarici siyasətin prioritetlərinin ardıcıl surətdə həyata keçirilməsi nəticəsində əldə olunan uğurlar gələcəyə ümidlə baxmağa əsas verir.

## Düzgün müəyyənləşdirilmiş siyasi kursun məntiqi nəticəsi

Azərbaycan dövlət müstəqilliyini bərpa etməsindən iki il sonradan başlayaraq, indiyədək regional və qlobal səviyyədə fəaliyyətini, o cümlədən, beynəlxalq arenada əməkdaşlığı getdikcə genişləndirdi. Bu gün respublikamızın müstəqil dövlət kimi nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən, BMT, ATƏT Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qoşulmama Hərəkatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və çoxlu sayda digər təşkilatlara üzvlüyü bundan xəbər verir. Azərbaycan, həmçinin GUAM regional qrupunun təsisçilərindən biridir.

Azərbaycan, həm də bir neçə mötəbər beynəlxalq təşkilata uğurla sədrlik edib və bu gün də edir. Hazırda Qoşulmama Hərəkatının sədri kimi üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Yeri gəlmişkən, ölkəmizin QH-yə sədrliyi dövründə həyata keçirdiyi tədbirlər üzv dövlətlər tərəfindən yüksək dəyərləndirilmişdir. Ona görə də quruma üzv dövlətlər Azərbaycanın bu təşkilata əlavə 1 il də sədrlik etməsi barədə müraciət ediblər. QH-yə üzv dövlətlərin müraciəti müsbət cavablandırılıb.

Məlum olduğu kimi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2022-ci ildə başa çatacaq. Ancaq QH-yə üzv dövlətlərin müraciətindən sonra ölkəmizin quruma daha bir il sədrlik etməsi qərara alınıb. Bu, eyni zamanda, Prezident İlham Əliyevin qlobal liderlik fəaliyyətinə verilən yüksək qiymət, o cümlədən, respublikamıza olan inam və etimadın növbəti təzahürüdür. Dünyanın başı üzərini koronavirus pandemiyası aldığı və fəsadlar törətdiyi bir vaxtda Azərbaycan vəziyyətə çevik və adekvat reaksiya verərək sədrliyini müvəffəqiyyətlə həyata keçirmiş, qarşıya qoyulan məqsədə nail olmuşdur.

Ölkəmizin QH-yə sədrliyi dövründə hərəkatın beynəlxalq nüfuzunun, təsirinin gücləndirilməsi, üzv dövlətlərin marağının, beynəlxalq hüququn və ədalətin müdafiəsi üçün göstərdiyi səylər dünyada etiraf olunur. QH-yə üzv dövlətlərin belə bir mürəkkəb dövrdə nüfuzlu quruma uğurlu sədrliyinə, eləcə də, hərəkata nəzərdə tutulandan 1 il artıq – 2023-cü ilin sonuna qədər sədrlik etməyə hazır olması dövlət başçımızın düşünülmüş strategiyasının məntiqi nəticəsidir. Qoşulmama Hərəkatı dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur.

Bu qurumun sədri qismində Azərbaycan pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış edib.

Koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşü mühüm beynəlxalq əhəmiyyət kəsb etdi. Prezident İlham Əliyevin koronavirusa qarşı operativ qərarları, atdığı uğurlu addımlar geniş təqdir olundu. Dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi , Azərbaycan koronavirus təhlükəsi yarandığı ilk günlərdən pandemiya ilə mübarizə sahəsində QH-yə üzv ölkələr də daxil olmaqla, 30-dan çox dövlətə humanitar və maliyyə yardımı edib. Bununla yanaşı, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub. Təşkilatın Azərbaycan üçün önəmini artıran amillərdən biri də bu təşkilatın prinsiplərinin ölkəmizin xarici siyasət prioritetləri ilə tam üst-üstə düşməsidir. Hərəkat dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe tutur və beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir.

Qoşulmama Hərəkatının zirvə görüşündə dövlətimizin başçısının COVID–19-la mübarizəyə həsr olunmuş BMT-nin xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsü böyük rəğbətlə qarşılandı. 150-dən çox dövlətin bu təşəbbüsü dəstəkləməsi və xüsusi sessiyanın keçirilməsi dövlət başçımızın dünyada artan nüfuzunun nəticəsi idi.

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə aparılan genişmiqyaslı işlərin və atılan doğru addımların nəticəsində Qoşulmama Hərəkatına üzv dövlətlər Ermənistanın ölkəmizin ərazisini işğal etməsi və işğal faktını təsdiqləyən BMT-nin dörd qətnaməsinə istinad edərək, lap əvvəldən haqlı mövqeyimizi dəstəklədilər. Eləcə də, 2020-ci ilin iyulunda Tovuz rayonunda Ermənistan tərəfindən törədilmiş təxribatla bağlı Qoşulmama Hərəkatı üzvləri tərəfindən Ermənistanın törətdiyi cinayətlərin dayandırılması ilə bağlı vahid mövqe nümayiş etdirildi. Eyni zamanda, Vətən müharibəsi dövründə Birləşmiş Millətlər Təşkilatının üzvü olan bəzi dövlətlər BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin icrasına laqeyd yanaşaraq, qərəzli addımlar atmağa cəhd etdikləri anda Qoşulmama Hərəkatının üzv dövlətləri bu ədalətsizliyin qarşısının alınmasında xüsusi fəallıq göstərdilər.

Ölkəmiz sədrliyi üzərinə götürdüyü beynəlxalq təşkilatlara uğurla rəhbərlik edir, eləcə də, yüksək səviyyəli görüşləri layiqincə keçirərək, qaldırılan problemlərin həllinə nail olur. Təbii ki, bu, dünənin, bu günün işi deyil.

## Diplomatiyamızın tarixi nailiyyəti

2011-ci ilin oktyabrında Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməklə müstəqil olduğumuz 20 ildə xarici siyasətin ən böyük uğurlarından birini qazandı. Bu məqsədlə keçirilən seçkilərdə 155 ölkənin səsini qazanaraq tarixi nailiyyətə imza atan ölkəmiz 2012-ci il yanvarın 1-dən BMT Təhlükəsizlik Şurasında səlahiyyətlərinin icrasına başlamışdır. ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzvlərlə birgə Azərbaycanın da dünyanın bir nömrəli beynəlxalq təşkilatının ən ali qurumunda iştirakı ölkəmizin tutduğu yolun dünya birliyi tərəfindən dəstəklənməsinin əyani təsdiqidir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olduğu müddətdə bu quruma müxtəlif vaxtlarda iki dəfə sədrlik edib. 2012-ci il mayın 1-dən Azərbaycanın BMT Təhlükəsizlik Şurasına birinci sədrliyi başladı. Bir ay sədrlik müddətində ölkəmiz əsas diqqəti, Yaxın Şərq, nüvə silahının yayılmaması, terrorizmə qarşı mübarizə, Balkanlarda vəziyyət və Suriya böhranına yönəltdi. O cümlədən, dünya ictimaiyyətinin diqqət mərkəzində olan sülh və beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə və münaqişələrin həll edilməsi kimi digər qlobal əhəmiyyətli məsələlər də Təhlükəsizlik Şurasının gündəliyi çərçivəsində müzakirələrə çıxarıldı. Prezident İlham Əliyevin "Biz Təhlükəsizlik Şurasında, ilk növbədə, beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik və müdafiə edirik" – fikri tam təsdiqini tapdı.

Azərbaycan Təhlükəsizlik Şurasının sədri olaraq, terrordan əziyyət çəkmiş bir ölkə kimi, "Terror aktları ilə beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidlər" mövzusunda yüksək səviyyəli iclas keçirməyə nail oldu. Bununla yanaşı, ölkəmizin sədrliyi müddətində beynəlxalq ictimaiyyətin qarşısında duran əsas problemlərin müzakirələrə çıxarılması məqsədilə müxtəlif məsələlərlə bağlı iclaslar keçirildi.

Birinci sədrlik dövründə Prezident İlham Əliyevin rəhbərliyi ilə "Terrorizmlə mübarizə sahəsində öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı yüksək səviyyəli iclas keçirildi. İclasda Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülhə, təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirələr aparıldı.

2013-cü ilin oktyabrında qeyri-daimi üzv kimi Azərbaycanın BMT Təhlükəsizlik Şurasında ikinci sədrlik dövrü olmuşdur. Bu dövrdə qurumun gündəliyi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri əhatə etmişdir. BMT tarixində, ilk dəfə olaraq, ölkəmizin təşəbbüsü ilə oktyabrın 28-də "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda qurumun yüksək səviyyəli iclası keçirilmişdir.

İslam mədəniyyətinin bəşəriyyətə, elmə və təhsilə mühüm töhfələr verdiyi qeyd edilərək, İslam dininə hücum və təhqir hallarına qarşı mübarizə aparmaq məqsədi ilə birgə səylərə və dialoqa ehtiyac duyulduğu bildirilmiş, qlobal səviyyədə dini və mədəni müxtəlifliyə hörmət edilməsinin vacibliyi vurğulanmışdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan tərəfindən respublikamızın ərazilərinin işğalının davam etməsindən narahatlıq ifadə olunmuş və problemin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri və BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri əsasında həllinə dair çağırışlar səslənmişdir.

Faktlar da təsdiqləyir ki, gənc müstəqil dövlətin nüfuzlu beynəlxalq quruma sədrliyi çox uğurlu olmuşdur. Azərbaycanın BMT Təhlükəsizlik Şurasında sədrliyi müddətində dörd qətnamə qəbul edilmişdir. Bunlar BMT-nin Haitidəki sabitləşdirmə missiyasının mandatının uzadılması ilə bağlı 2119 saylı, Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin mandatının uzadılması ilə bağlı 2120 saylı, Mərkəzi Afrika Respublikasındakı vəziyyətlə bağlı 2121 saylı və Şuranın oktyabrın 18-də "Qadınlar və sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş açıq iclasının yekununda qəbul edilmiş 2122 saylı qətnamələrdir.

## AŞPA-nın Nazirlər Komitəsinə sədrlik

Bu müddət ərzində Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların üzvü kimi, genişmiqyaslı fəaliyyəti daim diqqət mərkəzində olub. Ölkəmizə böyük etimad göstərilərək, həmin qurumlara sədrlik etmək Prezident İlham Əliyevin düşünülmüş xarici siyasət kursunun məntiqi nəticəsi idi. Respublikamızın Avropa Şurasına üzvlüyə qəbul edilməsi, hansı çətin proseslərdən keçməsi hər birimizin xatirindədir. Üzvlüyə qəbul zamanı üzərinə götürdüyü öhdəliklərin layiqincə yerinə yetirilməsi Azərbaycanı Avropa Şurasının fəal üzvlərindən birinə çevirdi. Respublikamız Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə daim hörmətlə yanaşmış və onları ardıcıl həyata keçirmişdir. Azərbaycanın Avropa hüquq normalarına və standartlarına uyğun gələn qanunvericilik bazası formalaşdırılmışdır. Məlum olduğu kimi, bu quruma üzvlük ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin formalaşmasında önəmli rol oynayıb.

Qürurverici haldır ki, respublikamız 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra, ilk dəfə, 2014-cü il mayın 14-dən altı aylıq dövr üçün həmin nüfuzlu təşkilatın Nazirlər Komitəsinə sədrlik edib. Həmin dövrdə Azərbaycan Avropa Şurasının fəaliyyətinin əsas sütunlarını təşkil edən insan hüquqları, qanunun aliliyi və demokratiyanın daha da inkişafı istiqamətində mühüm səylər göstərib. Eyni zamanda, qurumun üzv ölkələri və müxtəlif təsisatları ilə qarşılıqlı anlaşma şəraitində çalışıb. Azərbaycanın sədrliyinin prioritetləri Avropa Şurasının gündəliyində duran aktual məsələlər, üzv dövlətlərin qarşılaşdıqları təhdidlər, ölkəmizin müsbət təcrübəsi və fərqli üstünlükləri nəzərə alınmaqla, korrupsiyaya qarşı mübarizə, mədəniyyətlər və dinlərarası dialoq, sosial həmrəylik və sosial davamlılıq, gənclərin hüquqi maarifləndirilməsi kimi sahələr üzrə müəyyən edilmişdi. Həmin prioritetlərin dəstəklənməsi məqsədilə Azərbaycanda 18 mühüm beynəlxalq tədbirin keçirilməsi ölkəmizə olan inam və etimadı daha da artırmışdır.

Ölkəmiz təşkilata sədrliyi dövründə Avropa təhlükəsizliyi sisteminin təməlində dayanan prinsiplərin – plüralist demokratiyanın, qanunun aliliyinin və insan hüquqlarının möhkəmləndirilməsi üçün bütün vasitələrdən istifadə etmişdir.

## TDƏŞ xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə layiqli töhfələr verir

Dünyanın siyasi sistemində önəmli bir platformaya çevrilməkdə olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) 12 ildir ki, fəaliyyət göstərir. Hazırda bu təşkilat müasir dünyada baş verən siyasi proseslərin gedişində regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də, daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi, hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi dünyada sülhün və təhlükəsizliyin təminatı baxımından əhəmiyyətlidir.

Türkdilli dövlətlər arasında əməkdaşlığı təşviq etmək məqsədi ilə yaradılmış Türk Şurası qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində məqsədyönlü və uğurlu addımlar atır. Bu təşkilat indiyədək xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə layiqli töhfələr verir. Bu gün türkdilli ölkələrin liderləri arasında nümunəvi dostluq münasibətləri formalaşıb. Dövlət başçılarımızın siyasi iradəsi, ortaq köklərimizə sərgilədikləri hörmət və qayğı təqdirəlayiq olmaqla yanaşı, hər kəs üçün örnək təşkil edir.

Ötən illər ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bir təşkilat kimi əhəmiyyətli inkişaf yolu keçib. Şura ölkələrimiz arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafında mühüm rol oynayır. Türk Şurasının mötəbər beynəlxalq təşkilatlarla əlaqələri genişlənir. Hazırda BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla səmərəli əməkdaşlıq mövcuddur. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası zəngin mədəni irsimizin tədqiqi, maddi və mənəvi dəyərlərimizin dünya səviyyəsində təbliğində əhəmiyyətli rol oynayır.

Türkdilli ölkələri birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər bu ölkələrin qarşılıqlı səmərəli əməkdaşlığını şərtləndirən əsas amillərdir. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, TÜRKPA-nın ofislərinin Bakı şəhərində yerləşməsi Azərbaycanın türkdilli ölkələr arasında əhəmiyyətinə verdiyi önəmin göstəricisi olmaqla yanaşı, ölkəmizin türk birliyinin gücləndirilməsində mühüm rolunu nümayiş etdirir.

Bu quruma sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində səylər göstəririk. Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə zirvə görüşü bütünlüklə koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuşdu. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID–19 pandemiyasına həsr olunmuş zirvə görüşünü keçirdi. Bu, türkdilli dövlətlərin nümunəvi səviyyədə olan həmrəyliyin növbəti bariz təzahürüdür. Türk xalqlarını birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Hazırda Azərbaycan iki böyük təşkilata – Qoşulmama Hərəkatına və TDƏŞ-ə uğurla sədrlik edir. Mötəbər təşkilatlara sədrlik ölkəmiz üçün elə bir çətinlik yaratmır. Ermənistan üzərindəki tarixi qələbəmizdən sonra ölkəmiz xarici siyasətində yeni missiyaya başlayıb və əminliklə söyləmək olar ki, Azərbaycan bundan sonra da hər hansı bir beynəlxalq təşkilata sədrliyi layiqincə icra edəcək.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*